Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 35-36 (7556-7557) ✲ 1933-cü ildən nəşr olunur ✲ Çərşənbə, 31 iyul 2019-cu il. ✲ news@qebele-ih.gov.az

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***29 iyul***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Merin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi bir daha vurğulanıb, münaqişənin nizama salınması ilə əlaqədar fikir mübadiləsi aparılıb.

***24 iyul***

Prezident İlham Əliyev Beynəlxalq Astronavtika Federasiyasının prezidenti, Fransa Kosmik Agentliyinin rəhbəri Jan-İv Lö Qalı qəbul edib. Görüşdə Azərbaycanda kosmik sənayenin inkişafında əldə edilən uğurlar qeyd olunub, yüksək texnologiyaların, o cümlədən kosmik sənayenin ölkəmizdə prioritet sahələrdən biri olduğu bildirilib, Azərbaycanın artıq üçüncü süni peykinin orbitə buraxılması mühüm hadisə kimi dəyərləndirilib və ölkəmizin dünya kosmik ailəsinin üzvü olmasının əhəmiyyəti vurğulanıb.

***23 iyul***

Azərbaycan Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Qo Minin etimadnaməsini qəbul edib.

✲ ✲ ✲

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Volfqanq Maniqin etimadnaməsini qəbul edib.

✲ ✲ ✲

Prezident İlham Əliyev İsveçrə Konfederasiyasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Muriel Peneveyrenin etimadnaməsini qəbul edib.

✲ ✲ ✲

Ölkə başçısı İlham Əliyev Malayziyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yubazlan Bin Yusofun etimadnaməsini qəbul edib.

✲ ✲ ✲

Azərbaycan Prezidenti İlham Əliyev Kolumbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luis Antonio Dimate Kardenasın etimadnaməsini qəbul edib.

***22 iyul***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Taonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

# Nailiyyətlərin mənbəyi həyata keçirilən uğurlu siyasətin təzahürüdür



Ötən illər ərzində ölkəmizin sosial-iqtisadi inkişafı ilə bağlı çoxsaylı proqramlar həyata keçirilib.

Xüsusilə regionların hərtərəfli inkişafı istiqamətində 2004-cü ildən başlanılaraq uğurla həyata keçirilən Dövlət Proqramları mühüm əhəmiyyətə malikdir. Bu proqramların reallaşdırılması əhalinin məşğulluğunun və işgüzar fəallığının artmasına, regionlarda sahibkarlıq fəaliyyətinin daha da genişlənməsinə, infrastruktur layihələrinin inkişafına, beynəlxalq tələblərə cavab verən rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən yeni müəssisə və obyektlərin yaranmasına səbəb olub. Məhz bu proqramların nəticəsində vətəndaşların rifahı yüksəlib, bölgələrin inkişafı yeni keyfiyyət mərhələsinə qədəm qoyub.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında", eləcə də "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" sərəncam və fərmanları nəticəsində bir sıra istiqamətlər üzrə mövcud vəziyyətin yaxşılaşdırılması, maliyyə sabitliyi və davamlı iqtisadi inkişafın təmin olunması, Azərbaycanın iqtisadi mövqeyinin gücləndirilməsi ilə bağlı mühüm nailiyyətlər əldə olunub.

Son 15 ilin ən mühüm nailiyyətlərindən biri və digər sahələrin inkişafı üçün əsas zəmin yaradan amil ölkədə sabitlik və təhlükəsizlik şəraitinin təmin edilməsidir. Dünyada risklərin, təhlükələrin artdığı, qanlı münaqişələrin, hərbi qarşıdurmaların geniş vüsət aldığı bir şəraitdə Azərbaycanda insanlar üçün sabitlik, təhlükəsizlik şəraiti təmin olunub.

Ölkəmiz bu gün böyük strateji əhəmiyyəti olan və dünyanın iki böyük qitəsi Avropa ilə Asiyanı birləşdirən beynəlxalq nəqliyyat dəhlizinin əsas fiqurlarından biri rolunda çıxış edir.

Bütün bu irimiqyaslı sosial layihələrin həyata keçirilməsi ilk növbədə Azərbaycanda aparılan iqtisadi siyasətlə sıx bağlıdır. Ölkənin artan iqtisadi qüdrəti, yaradılan potensial sosialyönümlü bazar iqtisadiyyatının qurulması istiqamətində möhkəm özül formalaşdırır.

Ölkə iqtisadiyyatının davamlı inkişafını şərtləndirən sahələrdən biri də inşaat sektorudur. Zəngin maddi-texniki bazaya malik olan tikinti sektoru tərəfindən ölkəmizdə müasir emal müəssisələri tikilir, yollar çəkilir, körpülər salınır, bir sözlə, infrastruktur yenidən qurulur.

Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir. Çünki bu siyasət xalqımızın rifah halının yaxşılaşdırılmasına xidmət edir. Bu siyasət ölkəmizin güclü dövlətə çevrilməsinə hesablanıb. Məhz bu siyasət nəticəsində Azərbaycan dünyanın müxtəlif kürsülərindən öz sözünü açıq deyir, müstəqil siyasətini aparır, maraqlarını tam şəkildə qoruyur.

Azərbaycan dövlətinin siyasətinin ana xəttini xalqın layiqli həyat səviyyəsi ilə yüksək təminatı təşkil edir.

Dövlət başçısının birbaşa rəhbərliyi ilə qeyd edilən sahələrdə islahatların davam etməsi yaxın gələcəkdə daha böyük nəticələrin olacağından xəbər verir.

**"Qəbələ"**